# İNCƏSƏNƏT

**Ayətullah Xameneinin sənət adamlarına tövsiyələri**

**Tərtib edən: Mustafa Həsənzadə**

*Əgər biz şeir, ədəbiyyat, musiqi, rəssamlıq, qrafika, yazıçılıq və ədəbiyyat aləmində həm qəmli qəlblərimizi sevindirən, həm bizə vəzifəmizi yerinə yetirmək hissi aşılayan, həm ölkəmizin, xalqımızın, ədəbiyyatımızın və tariximizin taleyində təsir buraxan, həm də Allahın razılığını qazanan bir iş tapsaq, bunu nə ilə bərabərləşdirə bilərsiniz?! Buna qarşılıq bir şeyiniz varmı?! Bu, ən üstün, ən yaxşıdır. Elə bir şeydir ki, kimsə ona nail olsa, Allah-Taalaya hər an min dəfə şükür etməlidir. Bu isə mümkün deyil.*[1]

## Bir neçə saniyə!

İncəsənətin xüsusiyyəti belədir; yaranış onun mahiyyətindən sayılır. İnsanın təşkil olunduğu və yarandığı elementlər də elədir ki, hətta elmin inkişafı ilə çətin ki tanınsın və nəhayət dərk olunsun. Bu o demək deyil ki, biz bu gün insan vücudunun sirrini dərk edə bilməyək. Bildiyiniz kimi, bəşər tükənməz varlıqdır, vücudunda da sonsuz sayda element işlənmişdir. Təxmini bənzətmə üçün bir tablonu misal çəkmək olar. İnsan mürəkkəb sənət növlərindən olan bir rəsm tablosuna diqqətlə baxdıqda onun yüzlərlə elementdən təşkil olunduğunu görür. Avam bir adamın gözü bu tabloya baxdıqda isə yalnız br tablo görür. Halbuki bu tablo bəsit deyil, çoxlu elementlərdən ibarətdir. Deməli, aləmlərin Rəbbinin böyük sənət əsəri olan insanın öz varlığı da belədir. Sizin vücudunuzda müxtəlif elementlər işlənərək yaranışın ən gözəl və ən yaxşı məxluqu vücuda gəlmişdir. İnsanın yarandığı və formalaşdığı elementlər arasında bəzilərinin yaratma və yaradıcılıq haləti vardır; incəsənət də onlardandır və bizim bildiyimiz qədərincə bəlkə də ən yaxşısı incəsənətdir. Deməli, incəsənətin yaradıcılıq xüsusiyyəti vardır. Hətta siz sənətin zahirən bir şeylə məşğul olduğunu gördükdə də əslində məşğul olmaq deyil, diqqətlə baxsanız, görərsiniz ki, sənət yaratmaqla məşğuldur. Məhz buna görə incəsənət qiymətli bir gövhərdir və sənət adamının həqiqi dəyəri vardır.[2]

## Dili olmayan xalq

Kinosu olmayan xalq heç bir dili bilməyən bir insan kimidir. Fərz edin bir nəfər bizim ölkəmizdə bütün yerli ləhcələri - İran dillərini bilir. Bunları bilməyən adama nisbətən onun dərkinin genişliyi və düşüncə mübadiləsi nə qədər çoxdur; hamı ilə danışır, hamı ilə anlaşır, hamıya başa salır və hamını başa düşür. Yaxud bir adam qeyri-iranlı dilləri - əcnəbi dilləri bilir; bir şəxs ərəb dilini, ingilis dilini, yaxud alman dilini bilir. Bilməyənlə onun nə qədər fərqi var?! Sənət dili də belədir. Teatrdan, rəssamlıqdan, şəkildən, yaxud şeirdən bir şey anlamayan şəxsin üzünə məlumat yolları bağlanmışdır. Bunların hər hansı birinə malik olmayan xalqın üzünə bir qapı bağlanmışdır.[3]

## İncəsənət zövqü

Siz istər incəsənət xadimi kimi, istər Təbliğat Komitəsinin İncəsənət şöbəsinin işçiləri kimi incəsənət zövqünün artırılması ilə məşğul olmalısınız. Sizin incəsənət zövqünüz tamaşaçını heyran qoymalı, iddiaçı olan, izah istəyən və sizin nailiyyətinizi gözləyən şəxsi qane etməlidir.

Şübhə yoxdur ki, səhv təfəkkürləri, məqsədləri, yaxud həvəsləri olan şəxslər incəsənətdən istifadə edəcəklər. İncəsənət elə bir şeydir ki, dünyanın bütün şüurluları - əməl edənlər və dinləyicilər icra etməklə və həzz almaqla ondan istifadə etmək istəyirlər. Ümumiyyətlə dünyada elə bir ağıl sahibi varmı incəsənətdən istifadə etmək istəməsin?! Təbii ki, hamı incəsənətdən istifadə etmək istəyir. İstifadə növlərindən biri də budur ki, bir nəfər natəmiz bir düşüncəni bir sənət növü vasitəsi ilə beyinlərə yeridir. Buna əsasən, o şəxs də incəsənətdən istifadə etmək istəyir, ümumiyyətlə qınaq yeri yoxdur; necə ki, pul və silahdan istifadə edirlər. Natəmiz düşüncə və üsul sahiblərinin qarşısını almaq olmaz. Görülməsi mümkün olan iş budur ki, natəmiz düşüncə sahibinin istifadə etmək istədiyi, yaxud etdiyi məsələni müqəddəs, pak və ülvi düşüncənin iqtidarlı pəncəsinin ixtiyarına buraxaq. Çünki əgər bu pak, müqəddəs və ülvi düşüncə bu zövqdən istifadə edə bilməsə, şübhə yoxdur ki, geri qalacaq.[4]

## Aşıb-daşan və tükənməyən ilahi çeşmə

Bacardığınız qədər sənəti inkişaf etdirməlisiniz. Sənətkar onda sənət zövqünün olduğu qədərincə - prinsipcə bu zövq sənətkarın ömrünün sonuna qədər davam edir – işi bitmiş və dayanmış bilməməlidir. Yəni heç bir sənətkarın haqqı yoxdur ki, desin: "Mən yüksək səviyyədəyəm, daha bundan artıq və bundan yaxşı nə edim?!" Xeyr, bu gün sizin gördüyünüz iş çox yüksək səviyyədə olsa da, yenə də ondan üstünü vardır. İncəsənətin ümumiyyətlə ölçüsü və sonu yoxdur. Odur ki, inkişaf etməlidir. Siz cənablar sənəti inkişaf etdirməli və saxlamamalısınız. Buna əsasən, sənəti dərinliklərə yaxınlaşdırın, mümkün olan qədər dərinliyə varın ki, aşıb-daşan və tükənməyən bu ilahi çeşməni öz vücudunuzda daha rəvan və daha çiçəkli edəsiniz.[5]

## Qiymətli sənət; nə faydasız və nə ayaq altına düşmüş

Bir cümləni siz iki cür deyə bilərsiniz: sənətkarcasına və qeyri-sənətkarcasına. Əgər sənətkarcasına olsa, təsir göstərəcək, belə olmasa, təsir göstərməyəcək. Sənət belədir. Heç bir şey sənətin yerini tutmur. Bu gün dünya səviyyəsində müstəmləkə mədəniyyəti - təcavüzkar mədəniyyət desək, daha yaxşıdır - bütün dünyanı ələ keçirməkdədir. Əlbəttə, bu mədəniyyət mürəkkəb bir şeydir, bəsit deyil. Onun ən çox və ən geniş istifadə etdiyi vasitə incəsənətdir; film hazırlayırlar, teatr, sənət əsəri və roman düzəldib göndərirlər.

Biz nə üçün öz həyatımızın adi işlərində incəsənətin roluna bu qədər əhəmiyyətsiz yanaşırıq?! İncəsənət insan zehninin ən son qatlarına qədər işləyir, qalıcı və qurucudur. Bacardığımız qədər yaxşı və qiymətli sənətdən - faydasız olmayan və ayaq altına düşməyən sənətdən istifadə edin.[6]

## İdeal incəsənət

İstehsal və təqdim etdiyiniz sənətin dəyərli sənət olmasına çalışın. Yəni sənətin ülviliyi nəzərə alınmalıdır. İncəsənətin xüsusiyyəti belədir ki, ideal sənətdən gözlənilən məqsədin əldə olunması üçün ülviliyə malik olmalıdır. Mən bu sahədə musiqi sənətini misal çəkirəm. Səbzəvarda bir mərhum musiqiçi kişi vardı. Təsadüfən o şəhərə gözəl səsi olan, lakin muğam dəstgahlarını bilməyən bir vaiz getmişdi. Bu qoca deyirdi ki, bu cənab xaric oxuyanda sanki mənim qulağıma mıx batırırlar. Bu necə sənətdir?! Məgər insan camaatın qulağına mıx batırmaq üçün oxuyur?! İnsan oxuyur ki, camaat həzz alsın; həm həzz alsın, həm də bu söz vasitəsinin və alətinin köməyi ilə - çünki incəsənət həm də vasitədir - bir mətləb ötürülsün. Lakin belə olsa, köçürülməyəcək; səlis olmadıqda köçürülməz. Sanki siz qədim bir oxa bir kağız bağlayıb atırsınız ki, bu kağızı bir yerə çatdırsın. Əgər bu ox əyri və yonulmamış olsa, yolun ortasında düşəcək və o kağız məqsədə çatmayacaq. Əgər incəsənət də belə olsa, pis oxusalar, naşı oxusalar, sənət qaydalarına riyaət etmədən oxusalar, yaxud oynasalar, yaxud danışsalar, məqsəd hasil olmayacaq. Buna əsasən, istər rəssamlıq edəsiniz, istər musiqi ifa edəsiniz, istər pyes və ssenari yaza, yaxud oynayasınız, istərsə də oxuyasınız, ən yaxşısını təqdim etməyə çalışmaq lazımdır. Həzin Lahici Hind üslubunda yazan çox yaxşı və dəyərli bir şairdir. Onun divanında bir mətləb var - bir dəfə divanının əlyazmasının bir hissəsi məndə idi, onu mərhum Sahibkara verdim və o hissəni düzəltdi - deyir ki, mən bəzən şeir deməyə tamamilə peşman oluram, deyirəm mən nə üçün şeir deyirəm. Çünki insan ən yaxşısını deyəndə şeir deyir. Onun özü çox yüksəkdə olsa da, özünü məsələn, Saiblə müqayisə edib baxırdı ki, Saib hara o hara. Biz də bəzən nələrsə deyirdik. Bu sözləri oxuyanda gördük ki, Həzin belə danışırsa, biz ümumiyyətlə qapısını bağlamalıyıq. Həqiqət də budur və bu sizin öz əlinizdədir. Bütün problemlərə rəğmən, sənəti gözəl və bacardıqca daha yaxşı və daha gözəl etməyə çalışmalısınız. Bu sahədə bizim bəzi incəsənət növlərindən çoxlu

gileylərimiz var. Həqiqətən aşağı və az dəyərli işlərlə qane olur və onları təqdim edirlər. Bəzən insan görür ki, bir sənət adamı bir yerdə nə qədər yaxşı oynayıb, amma başqa bir yerdə zəif yazılmış əlaqəsiz bir pyeslə özünü də korlamışdır. İncəsənəti dəyərli etmək lazımdır; yəni səy göstərmək lazımdır ki, sənət əsəri dəyərli olsun.[7]

## Yalnız qalaqlamaq yaxşı deyil!

Yaxşı iş görülməlidir; həqiqətən sənət işi, dəyərli iş. Hərdən bu dostların və bizi sevən şəxslərin bəzisi həqiqətən səmimiyyətlə məsələn, bir xalça üzərində imamın şəklini - çox bir pis şəklini toxuyub bizə hədiyyə edirlər. İnsan fikirləşir ki, bunu nə etsin. Bunu saxlamaq lazımdır, yandırmaq olmaz. Toxunma da deyil ki, açasan. Bu qalmalıdır. Biz bir muzey düzəldib bu yadigarları və belə əşyaları orada saxlayırıq. Həmin muzey imamın pis və çirkin bir şəklinin həmişə orada qalmasına məhkum oldu. Yaxud bəziləri pis bir şeir deyirlər. Xoşbəxtlikdən şeir kətibə olmur, amma bəziləri özləri kətibə edirlər; bəziləri yazır və yaxşı bir qaba qoyub bizə göndərirlər. Məsələn, inqilab barədə, İslam barədə, imam barədə bir şeirdir, amma pis bir şeir. Hər halda bu sahələrdə sənət işi yaxşı olmalıdır, dəyərli olmalıdır, ən yaxşısı olmalıdır. Qalaqlamaq birinci ideal deyil; əgər yaxşı olsa, qalaqlaması da yaxşıdır. İşi əsla həcm baxımından çoxaltmağa israr etməyin. İsrarınız işin keyfiyyətini yüksəltmək olsun.[8]

## Özünəinam həyati məsələdir!

Əgər bu günü inqilabdan öncəki dövrlə müqayisə etsəniz, görərsiniz ki, bizim vəziyyətimiz çox yaxşıdır və üstünlüklərimiz var. Lakin əgər çatmalı olduğumuz vəziyyətlə müqayisə etsək, xeyr, geridəyik. Mən açıq şəkildə deyirəm ki, geridəyik. Bizim hələ yazıçılıq sahəsində, şeir sahəsində, təsviri incəsənətdə - yəni kino və teatr sahələrində çox çatışmazlığımız var, görülməyən işlərimiz çoxdur. İnsan çoxlu naşılıqlar müşahidə edir. Mən ümidvaram incəsənət sahələrində fəaliyyət göstərən şəxslər bizim inqilabın digər sahələrində müşahidə etdiyimiz və dünyanı özünə cəlb edən - sənayedə, hərbi sənayedə və elm sahələrində biz doğrudan da dünyanın diqqətini cəlb edən işlər görmüşük - özünəinamı əldə edək və incəsənət sahəsində də inşallah böyük xalqımıza və inqilabımıza yaraşan işlər görə bilək. Məndə bu ümid var.[9]

## Nemətin məsuliyyəti

Hər bir sənətkar təklikdə bir dünyadır. Bu onun vücudunda olan sənətin xüsusiyyətidir. Əgər imkan olsaydı və insan qəmxar şəkildə sənətkarların qəlbində otura bilsəydi, möhtəşəm və gözəl bir dünya görərdi; qəm və sevinclərlə qarışmış, arzu, nigaranlıq və amallarla qarışmış bir dünya. Lakin təəssüf ki, bu imkan yoxdur. Həqiqətən incəsənət bir ilahi nemət və çox dəyərli həqiqətdir. Bu nemətin təbii şəkildə Allah tərəfindən bəxş olunduğu şəxs digər sərvətlər kimi özü üçün məsuliyyət tanımalıdır. Yəni Allahın verdikləri vəzifə ilə yanaşı olur. Bu vəzifələrin hamısı zəruri olaraq dini və şəriət vəzifəsi deyil. Çoxusu insanın qəlbindən qaynaqlanan vəzifələrdir. Sizin gözünüz var; bu, bəzilərində olmayan bir nemətdir. Amma bu göz təbii olaraq bəzi ləzzət və faydaları verməklə yanaşı sizin üçün bir vəzifə də yaradır. Bu vəzifə sizin gözünüzün olduğuna görədir. Lazım deyil ki, din insana desin, yaxud onun barəsində bir Quran ayəsi nazil olsun. Bunu sizin qəlbiniz anlayır. Sərvət, nemət və nailiyyət varsa, qarşısında vəzifə də var.[10]

## Sənətkarda xüsusi sevinc var!

Düşüncə, fikir və əqli dərk nə qədər yüksək olsa, zərif incəsənət dərkinin keyfiyyəti daha da artar. Hafiz Şirazi yalnız sənətkar deyil, onun sözlərində ülvi bilgilər vardır. Bu bilgilər yalnız sənətkar olmaqla əldə olunmur, onların fəlsəfə və düşüncə dayağına ehtiyacı var. Düzdür, hamı bir səviyyədə deyil, belə olması gözlənilmir də. Bu bütün sənət növlərində belədir; memarlıqdan tutmuş rəssamlığa, çertyojçuluğa, heykəltəraşlığa, kino, teatr, şeir, musiqi işlərinə və incəsənətin digər sahələrinə qədər hamısında bu var. Bir zaman siz düşüncəsi olan bir memarı görürsünüz. Bir zaman da düşüncə sarıdan çılpaq, kimliksiz və düşüncəyə söykənməyən bir memarı görürsünüz. Əgər bunlar bir bina tikmək istəsələr, iki cür layihə hazırlayacaqlar. Əgər bir şəhərin tikintisini iki belə adama tapşırsalar, onun bir yarısı digər yarısı ilə tamamilə fərqli olacaq. Öhdəlikli sənət bir həqiqətdir, biz onu etiraf etməliyik. Səndələyən halda, gündəlik və bəzən aşağı, əskik və qeyri-sağlam maraqlarla sənət ardınca gedib başıuca olmaq mümkün deyil. Çünki sənətkarda mövcud olan o sevinc - sənətkarın xüsusi bir sevinci var; o, adi şadlıqlarla fərqlənir və sənətkar olmayanda ümumiyyətlə yoxdur - o zaman həqiqətən yaranacaq ki, nəyin ardınca getdiyini, nə iş görmək istədiyini bilsin və öz sənət əsəri ilə razılıq və sevinc hissi keçirsin. Bu zaman insani əxlaq, dəyərlər, uca dini və ilahi bilgilər diqqətdə olmalıdır.[11]

## Allah üçün xərcləyin!

Ümidvaram incəsənətin öz həqiqi məqamında olan dəyəri sənət adamlarının diqqət mərkəzində olsun və onlar vücudlarında olan bu dəyərli gövhərin qiymətinə diqqət yetirsinlər, hörmətlə yanaşsınlar. Ona hörmət etmək də öz layiqli yerində xərcləməkdir. İmam Səccad (ə) bir hədisdə buyurur: "Sənin canın və insani varlığın ən dəyərli şeydir. Allahın vəd etdiyi cənnətdən başqa heç bir şey bu canın qarşılığı ola bilməz; bunu cənnətdən başqa bir şeylə dəyişməyin". İncəsənət insan canının ən dəyərli və ən qiymətli hissələrindən biridir. Bunu dəyərli saymaq və Allah üçün xərcləmək lazımdır. Əlbəttə, Allah üçün xərcləyin dedikdə zehin tez təbəqəçəliyə və riyakarlığa sarı getməsin.[12]

## Sənətdə iqtisadiyyat

Sənətdə iqtisadiyyat məsələsi mühüm məsələdir. Bu, icraçı qurumlara aiddir və mən xüsusən İrşad Nazirliyindən olan dostların buna diqqət yetirməsinə təkid göstərirəm. Bundan əlavə, sənətkarların özlərinin məişət vəziyyəti çox yuxarı və əksər hallarda məqbul həddə deyil. İncəsənət işlərinə sərmayə qoyan şəxslər bəzi məsələlərə sadiq olduqda çox zaman maddi gəlirləri olmur. Şübhəsiz ki, bunlara kömək etmək lazımdır. Əgər kömək olunmasa, onlara pul gətirən və onları təmin edən işlərə sarı gedəcəklər. Bu da təbii ki, həmişə yaxşı olmur.[13]

## Yeni və gənc sənətkarlar

İnqilabın böyük hünəri bu idi ki, incəsənəti həqiqətlərin və insanın xidmətində işlədə və onu inhisardan da çıxara bildi. Mən inqilabdan sonrakı incəsənətdə bu iki xüsusiyəti müşahidə edirəm: həqiqətin xidmətində durmaq və incəsənətin əhatəsinin genişlənməsi. Nə qədər incəsənət istedadı aşkara çıxdı! Bu sahədə müharibənin şübhəsiz, əsaslı bir rolu var. Nə qədər könüllü sənətkar müharibə dövründə tanındı, göründü, sənətlərindən istifadə olundu; nə qədər fotoqraf, operator, yazıçı, şair və nə qədər təsviri sənət adamı!

Əlbəttə, bizim səhlənkarlıqlarımız da bir-iki deyil. Biz həqiqətən özümüzü və cəmiyyətimizi bu istedadlardan bəhrələndirə bilməmişik. Bu iş uca insanların, hazır və qədirbilən zehinlərin üzərinə düşür. Onlar bu gənc və mömin qüvvələrin arasında incəsənət istedadı olan və uyğun sahədə Allah üçün, həqiqət üçün, insan üçün, bu ölkə və bu xalq üçün faydalı ola bilənləri təyin edib yetişdirsinlər.

Mənim fikrimcə, bu sahədə ölkəmizin incəsənət və mədəniyyət adamlarının üzərinə mühüm məsuliyyət düşür. Ən mühüm məsuliyyətlərdən biri də budur ki, işə yeni başlayan və sənət sahəsinə yeni daxil olan bu gəncləri sənət ehtiyatlarına malik olan – bəzilərində bu da yoxdur, yalnız adları var və əslində sənət ehtiyatları yoxdur, lakin öz sənət adları ilə zorla uca və böyük sayılmalarına çalışırlar – şəxslərin yalançı heybəti qarşısında qorusunlar. Onlar bizim gənc və yolda olan sənətkarlarımıza təzyiq göstərirlər. Bu gəncləri həm maddi və həm mənəvi cəhətdən dəstəkləmək lazımdır ki, duruşa, müstəqilliyə, sənət dili ilə danışmağa və etiqad bəslədikləri həqiqətlərdən danışmağa həvəslənsinlər. Hər halda bu mühüm bir məsuliyyətdir. Bu gün müsəlman sənətkara nə qədər hörmət göstərilsə və müsəlman sənətkarlar nə qədər həvəsləndirilsələr, yaxşı olar. Bu, böyük bir vəzifədir. Bu, ikinci dərəcəli bir iş deyil, əsas işdir. Bu gün ölkəmizin ucalması üçün – bu ölkə də yalnız və

yalnız İslam bayrağını və İslam dəyərlərini qorumaqla ucala bilər - bu işin görülməsi lazımdır.[14]

## Pis sənətkar yoxdur?!

Əziz qardaşımız buyurdu ki, pis ruhanimiz olmadığı kimi, pis sənətkarımız da yoxdur. Amma əslində hər iki təbəqədən olan pis adamımız var; həm pis ruhani, həm pis sənətkar. Ruhani, axund və müctəhid də olan, lakin hakim və istismarçıların aləti olan ruhanilər xalqın evini yıxdılar; bizim də evimizi yıxdılar. Məgər bunlardan bizdə az olmuşdur?! Mən bir dəfə dərdləşmək üçün Məşhəddən imama bir məktub yazdım, dedim ki, bir neçə tərəfdən təzyiq altındayıq: biri SAVAK tərəfindən, biri filan məsələ tərəfindən, biri də öz libasımızda olan bəzi şəxslər tərəfindən. Mən həmin məktubu çox zəhmətlə ona göndərdim. O cavabda belə yazmışdı: "Burada da elədir".

Pis sənətkarımız da var; hətta xain və bədxah sənətkarlarımız da var. Amerikalı yazıçı Con Şteynbek əvvəlcə "Qəzəb salxımları" kitabını yazmış və dəyərli işlər görmüşdü. Mən onun həyatı barədə oxudum ki, son zamanlarda, hamının əvvəlki işləri kimi əsərlər təqdim etməsini gözlədiyi halda gedib tam əksini etmişdir. Sonra bəlli oldu ki, kompaniyalar onu görüb və pul veriblər. Bizdə bu qəbildən olanlar vardı; belə deyil ki, bizdə olmayıb. Bizdə incəsənət sahəsində elə adamlar vardı, o qədər dindar və sərt idilər ki, biz deyirdik kaş onlar kimi olaydıq. Sonra birdən gördük ki, ümumiyyətlə ayrı cür oldular və 180 dərəcə çevrildilər. Yaxşı sənətkar, pis sənətkar; hər növü varımızdır. Mühüm budur ki, sənətin istiqaməti qorunsun və ona riayət olunsun.[15]

## Quran incəsənətin zirvəsində

İncəsənətin güclü dili var. Heç bir dil onun kimi güclü deyil; nə elmin dili, nə adi dil, nə moizə dili. Quranın müvəffəqiyyətinin sirlərindən biri onun sənətkarcasına olmasıdır. Quran sənətin zirvəsindədir, möhtəşəmdir. Doğrudan da o zaman xalqı sehrlədi. Əgər əziz Peyğəmbər (s) sənət dili olmadan oturub xalqla danışsaydı, düzdür, bəziləri maraq göstərərdilər, lakin o gurultu, o ildırım və o tufan vücuda gəlməzdi. Bu işləri görən incəsənətdir. Sənət əsərləri belədir.[16]

## Bundan böyük təhqir ola bilməz!

Biz deyə bilmərik ki, filankəs sənətkar olduğundan prinsiplərə qarşı digərləri ilə fərqi olmalıdır. Yəni sanki bəzi həyat prinsipləri bütün xalq üçün prinsipdir, sənətkar üçün isə prinsip deyil və sənətkar ruhunun lətifliyinə və incəliyinə, düşüncə və təsəvvürünün zərifliyinə görə həyatın adi prinsiplərindən istisna olunmuşdur. Xeyr, əsla belə bir şey yoxdur. Sənətkar zərifliyə, lətifliyə və həssaslığa görə həqiqəti daha yaxşı və daha tez anlayır, daha yaxşı bəyan edir və ona daha sadiq qalır. Belə deyil ki, həqiqəti digərlərindən tez, yaxud daha incə və daha zərif əldə etdiyinə görə daha asan da əldən versin. Məgər belə bir şey mümkündür?!

Ümumiyyətlə bu sənətə təhqirdir ki, biz öz daxilimizdə olan, yaxud bizdəki yanlış duyğulardan irəli gələn təxəyyülləri sənətin adı ilə bağlayaq. Necə ki, keçmişdə bu sənətkarların əksərən pis vərdişləri vardı, bəzi narkotik maddələrə aludə olmuşdular. O zaman mənim onların bəzisi ilə tanışlığım vardı, bəzisini də uzaqdan tanıyırdım və hansı vəziyyətdə olduqlarını bilirdim. Bir dəfə bir nəfərə dedim ki, nə üçün onların hamısı belədirlər və biz kimi eşitdik, tanıdıq və gördüksə, buna düçar olduğu bəlli oldu. Dedi ki, sənətkardır da. Mənim fikrimcə, incəsənətə bundan böyük təhqir ola bilməz. O bu sözü təhqir kimi demirdi, üzr göstərmək üçün deyirdi; demək istəyirdi ki, hər halda sənətkar lətafətli insandır və belə işlərə düçar olur. Halbuki bu ümumiyyətlə dəlil sayılmır.

İndi elə bir dövrdə yaşayırıq ki, o vərdişlər və problemlər azalıb, yaxud həyatın real meyarlarında sıradan çıxmışdır; inqilabdan sonrakı dövrün meyarlarında bu işlər keçmişdəkindən daha böyük eyib sayılır. Odur ki, sənətkar olmaq bəhanəsi və dəlili ilə digər işləri həmin vərdişlərin yerinə qoymamalıyıq.[17]

## Dünya incəsənəti bizim məmləkətimizə borcludur!

Əgər 1962-ci ildən başlayaraq həzrət imam tərəfindən min dillə - istər çıxış formasında, istər dərs formasında, istər fəlsəfi düşüncələr, istərsə də fiqhi nəzərlər formasında ortaya qoyulan bu inqilabi düşüncə sənət formasında təqdim olunmasa, gələcək nəsillər üçün yad bir şey olacaq. Sənətin xüsusiyyəti belədir. Sənət dili nədir? Yəni şəkillə, filmlə, heykəllə, şeirlə və romanla təsvir etmək. Siz görürsünüz ki, müstəmləkə siyasətləri inqilab və xoşları gəlməyən bütün dəyərlər əleyhinə işləmək üçün incəsənət işinə bu qədər sərmayə qoyurlar. Səbəbi incəsənətin bu təsiridir... Bilin ki, biz bu silahdan lazım olan formada və düzgün şəkildə istifadə etmirik. Əlbəttə, bizim ölkəmiz və məmləkətimiz incəsənət məmləkətidir. Yəni, dünya incəsənti min il öncədən bu yana ümumi şəkildə bizim məmləkətimizə borcludur, fars dilinə borcludur, iranlı sənətkarlara borcludur. Lakin biz bu silahdan istifadə etməmişik. Səbəb də budur ki, sənətkar və gövhər sahibi olan bir qrup vardı, amma özlərini inqilabla uyğunlaşdıra bilmədilər. Çünki sənətkarlıq digər yaxşı xislətlər mənasında deyil. Sənəti çox uca, amma özü əskik, dəyərsiz, pis, fasiq, fəsadçı və xəyanətkar olan insanların olması mümkündür. Bu qəbildən olanlarımız çox idi, indi də varımızdır və çoxları gözlərimizin önündədir.

İnqilab o zaman özünü sənət qəlibinə sala bilər ki, doğma sənətkarı olsun və sənətkarı özü yetişdirsin. Düzdür, gənclərin bir qrupu bu işləri görməkdədirlər; çox da yaxşıdır. Siz də harada və hansı formada olsanız, bu işi görün, bu silahın kəsərliliyinə diqqət yetirin, inqilab düşmənlərinin bu silahdan böyük istifadəsinə diqqət yetirin. Diqqət yetirin ki, inqilab məfhumları müxtəlif sənət əsərləri formasında yaxşı təsvir oluna bilərlər. Və bunun bir dəyər olmasını hiss edin.[18]

## Bunlar xalqların tarixini yazmışlar!

Nailiyyətlər həmişə ağır məsuliyyətlərə məxsusdur. Bəşər tarixinə baxdıqda görürük ki, rifah içərisində yaşayan sərvətlilər milyonlarla olmuşlar. Bəşəriyyət arasında pullular, biznesmenlər, sərvətlilər, milyonerlər və müxtəlif feodallar çox olmuşlar. Lakin bəşəriyyət öz davamını onların vücuduna bağlı bilmir. Bütün dünyada bizim və sizin nəzərinizcə son dövrlərin tarixini yaradan şəxsləri – mübarizləri, mücahidləri və şəhidləri bir kənara qoyaq və istisna edək; onların məsələsi ayrıdır. Lakin ədiblərə, şairlərə, yazıçılara, tarixçilərə, alimlərə və kəşfçilərə baxın və görün bunların hansı feodallardan, sərvətlilərdən, pullulardan, əlində yağlı və şirin loğma olanlardan olmuşdur. Əgər təsadüfən nə zamansa və zəmanənin səhvi nəticəsində bunların birinin bir şeyi olmuşsa, onun müqabilində dünyanın minlərlə filosofu, alimi, kəşfçisi, ixtiraçısı, şairi, ədibi, musiqiçisi və düşüncəli adamları yoxsulluq və fəlakət içərisində yaşamışlar. Amma nə siz, nə də dünyanın hansısa şüurlu insanı gəlib öz insani ölçüsündə bu yoxsul aclardan və gecə çörəyinə möhtac olanlardan bir nəfəri o sərvətlilərin və əhli-keflərin yüzlərlə və minlərləsinə dəyişməz. Nə üçün? Çünki xalqların tarixini yazanlar bunlardır; xalqları inkişaf etdirən, xalqlar üçün hörmət gətirən bunlardır.

Düzdür, hər yazıçı, yaxud sənətkar öz ölkəsinin inkişafında və bəşəriyyət tarixində təsirli olmur, xanın tör-töküntüsünü yeyənlər, həmin sərvətlilərin və biznesmenlərin qablarını yalayanlar da çox olur. Bu sözü deməkdə məqsədim odur ki, məsuliyyət nə qədər ağır olsa, işin qəm-qüssəsi və nigaranlığı nə qədər çox olsa, onun mənəvi dəyəri də çox olar və bəlkə də tarixin və sivilizasiyanın ümumi gedişində, bəşər bilgisində və düzgün əqli ölçüdə hörmət göstərilən xüsusiyyətlərdə daha uca və daha üstün tutular.[19]

## İstedadların aşkara çıxması üçün şərait

İnqilabla başlayan hərəkət ölkəyə ən böyük faydanı ərməğan etdi. Odur ki, yerli və islami ziyalılıq hərəkatı müxtəlif şöbələri ilə birgə ölkədə hər bir şeyi öz təsiri altına saldı. Bəstəkardan tutmuş musiqiçiyə, ədəbiyyatçıya, şairə, incəsənət xadimlərinə qədər hamısı islami düşündülər, islami işlədilər, ən azı buna çalışdılar. Bu, çox yeni və faydalı bir iş idi və bu davam etdi.

Müharibə bu sahədə istedadların çiçəklənməsi üçün şərait yaratdı. Bildiyiniz kimi, hər bir ölkədə ədəbiyyat və incəsənəti çiçəkləndirən amillərdən biri ağır hadisələr, o cümlədən müharibədir. Ən gözəl romanlar, ən yaxşı filmlər, bəlkə də ən dəyərli şeirlər müharibələrdə və müharibə ilə bağlı yazılıb, deyilib, istehsal olunub və vücuda gətirlib. Bizim müharibədə də belə oldu.[20]

Bizim ölkəmiz və mədəni qüvvələrimiz üçün mühüm olan mədəniyyətin keyfiyyət baxımından inkişafıdır; yəni sənət əsəri yaradıb incəsənəti inkişaf etdirə bilən şair, yazıçı, sənətkar və insanlar yetişdirmək.

Sənətkarları həvəsləndirməklə, istedadları tanımaqla, onlar üçün iş şəraiti yaratmaqla bir vilayətdə və ölkə miqyasında belə işlər görülsə, o zaman çoxlu ümidlər yaranacaq. Nə üçün? Çünki istedadlar dəyərli istedadlardır. Ölkə miqyasında yeni və geniş bir iş görüldükdə o zaman şadlanmaq, razı və ümidvar olmaq olar ki, mədəniyyət maşını işə düşmüşdür.[21]

## Öz izləyicinizi yaradın!

Görməli olduğunuz işlərdən biri öz izləyicinizi yaratmanızdır. Əgər qarşı cəbhənin izləyicisini ələ keçirmək fikrində olsanız, həmin fikrin sizi qarşı cəbhənin işini yamsılamağa vəsvəsə etməsi mümkündür.

Məsələn, cəbhənizin dastan yazan, yaxud film hazırlayan bəzi qüvvələri qarşı cəbhənin izləyicilərini cəlb etmək üçün onların yazıçılarının, yaxud film hazırlayanlarının gördüyü işləri görürlər. Bu iş əsla düzgün deyil, çünki öz cəbhənizin dəyişməsinə kömək edər. Mən bunu qəbul etmirəm. Biz öz izləyicimizi yaratmalıyıq. Əgər bizim düşmənimiz bu sözü təkrar etməklə qulaqları onunla tanış edirsə, biz onun istədiyi sözü təkrarlamağa məcbur olmamalıyıq. Əgər o, bir xörəyi yedirtməklə ölkə xalqını yeni dadla tanış edirsə, biz o yeni dadın ardınca düşməməliyik, özümüz başqa bir dad yaratmalıyıq; yəni bizim düşüncəmizə, imanımıza və etiqadımıza uyğun olanı. Xülasə budur ki, əgər düşmən öz işində bəzi xüsusiyyətləri qabardırsa, biz onu yamsılamamalıyıq.

Fərz edin düşmən öz hekayəsində, şeirində, filmində və pyesində real durumu tənqiddən istifadə edir. Biz də ondan geri qalmamaq üçün öz hekayəmizdə, şeirimizdə, filmimizdə və pyesimizdə real durumu tənqid etməliyik?! Nə üçün eyib axtarmaq, irad tutmaq və sancmaq mənasında tənqid edək?! Nə üçün özümüzü sancaq? Əgər real durumun nöqsanı varsa, iradı göstərib nöqsanı aradan qaldırmalıyıq. Nə üçün pisləşdirək? Biz çətin bir keçiddə nərilti ilə ağır-ağır hərəkət edən və çətinlik çəkən maşına daş atmamalıyıq. Çünki əgər daş atsaq, dayanacaq. Gərək o maşına kömək edək və itələyək ki, yuxarıya qalxsın.

Mən əsla demirəm ki, izləyiciləriniz özünüzünkülərdən ibarət bir qrup olsun. Sizin izləyiciləriniz bütün bəşəriyyətdir: "Biz səni bütün insanlara müjdə verən, qorxudan bir peyğəmbər olaraq göndərdik".[22] Demirəm ki, siz bir qrup mömin hizbullahçını tapın, onları yavaşca və xüsusi tərzdə gətirib sözlərinizi deyin, sonra buraxın, qalanları da özləri getsinlər. Mən bunu demirəm. Mən deyirəm ki, siz sözünüzdəki

meyarınızı qoruyun və qoyun izləyiciniz olan şəxslər üçün bu tam xoşagələn olsun; məsələn, peyğəmbərlərin və dünya islahatçılarının gördükləri iş kimi. Lakin əgər öz əlimizlə öz ətrafımıza divar çəksək, faciə olar.[23]

## Dini incəsənət təməlçilik və riyakarlıq deyil!

Dini incəsənət əsla təməlçilik və dini riyakarlıq demək deyil və bu incəsənət zəruri olaraq dini məfhumlarla vücuda gəlmir. Bir incəsənətin yüz faiz dini olması, lakin onda qeyri-dini sözlərdən istifadə olunması mümkündür. Düşünmək olmaz ki, dini incəsənət mütləq dini bir hekayəni təsvir edən, yaxud dini bir məsələdən, məsələn, ruhanilikdən söhbət açan bir əsərdir. Dini incəsənət odur ki, bütün dinlərin və hamısından çox sonuncu dinin insanların arasında yaymağa çalışdığı və bu həqiqətlərin yayılması yolunda pak canların fəda olunduğu təlimləri yaysın, əbədiləşdirsin və zehinlərə hopdursun. Bu təlimlər uca dini təlimlərdir. Bunlar elə həqiqətlərdir ki, bütün ilahi peyğəmbərlər onları insanların arasına gətirmək üçün ağır məsuliyyətlər qəbul etmişlər. Biz burada oturub dünyanın ən seçilmiş insanlarının - islahatçıların, peyğəmbərlərin və Allah yolunun mücahidlərinin fəaliyyətlərini günahlandıra və ona qarşı laqeyd qala bilmərik. Dini incəsənət bu təlimləri yayır. Dini incəsənət ədaləti cəmiyyətdə bir dəyər kimi tanıtdırır; sənət əsərinizdə dinin adını çəkməsəniz və ədalət barədə heç bir Quran ayəsi və hədis söyləməsəniz də. Məsələn, əsla lüzumu yoxdur ki, kinoda, yaxud teatrda mütləq dinin simvolu olan bir ad və yaxud forma mövcud olsun və dini sayılsın. Xeyr, siz təsviri incəsənətdə ədalət barədə ən səlis sözü yerləşdirməklə dini incəsənətə diqqət yetirmiş ola bilərsiniz.

Dini incəsənətdə ciddi şəkildə diqqət göstərilən amil budur ki, bu incəsənət ehtirasın, kobudluğun, pozğunluğun, insan və cəmiyyətin kimliyinin dəyişdirilməsinin xidmətində durmasın. Dini incəsənəti təməlçi və qapalı incəsənətlə - dostumuzun ifadəsi ilə desək, hansısa cahil və nadan toplumun üsullarının işləndiyi sənətlə səhv salmaq olmaz. Dini incəsənət ilahi dinlərin ən üstün amalları olan İslam amallarını təcəssüm etdirə və təqdim edə bilən incəsənətdir. Bu amallar insan səadətini, insanın mənəvi hüququnu, insan ucalığını, insanın təqva və imanını və cəmiyyətin ədalətini təmin edən amillərdir.[24]

## Biz təhqir olunmuşduq!

Mənim əzizlərim! Ölkəmiz bütün dərin mədəni xüsusiyyətlərinə rəğmən, təhqir olundu. 50-60 il bizə elə insanlar hakim oldular ki, onları iş başına gətirənlər nəinki biz deyildik – çünki İranda bu şəkildə xalq hakimiyyəti olmamışdır – hətta özlərinin igidlikləri də deyildi. Əgər diktator olsalar da, kaş ən əzı Nadir şah kimi öz qollarının gücünə, yaxud məsələn, Ağa Məhəmməd xan kimi öz hiyləgərlikləri hesabına iş başına gələydilər. Amma belə deyildi. Digərləri gəlib bunları bu xalqa hakim etdilər və bu xalqın bütün maddi və mənəvi sərvətlərini taladılar. Çox əzab və əziyyətlərlə bu mənfur vəziyyət qarşısında əzəmətli hərəkət baş verdi, canları fəda etməklə, qəddar düşmənin süngüsü qarşısında sinələri açmaqla nəticəyə çatdı. Bu gözəl deyil?! İncəsənət bunların kənarından necə laqeyd ötə bilər?! İnqilabın gözləntisi budur. İnqilabın əvvəlindən bizim dediyimiz və istədiyimiz inqilab sənəti budur. Bu gözlənti çoxdur?! Musiqi, film, teatr, rəssamlıq və sizin digər sənət növləriniz bu məsələ ilə məşğul olmalıdır. Bunlar lazımi işlərdir. İnqilabın sənətdən və sənətkardan gözləntisi hegemon və artıq gözlənti deyil, incəsənətin estetik əsaslarına söykənən gözləntidir. İncəsənət gözəllikləri dərk etməkdir. Bu gözəlliklər zəruri olaraq gül və bülbül deyil, bəzən bir nəfərin alova dözməsi hər bir gül və bülbüldən gözəldir. Sənətkar bunu görməli, dərk etməli və sənət dili ilə izah etməlidir.[25]

## İnqilabın gözləntisi

İnqilabın sənətdən və sənətkardan gözləntisi incəsənətdə olan estetik baxışa əsaslanır, artıq gözlənti də deyil. Bir xalq səkkizillik bir müdafiədə bütün varlığı ilə meydana atıldı. Gənclər cəbhəyə getdilər və onlar üçün yaranan dəyər yolunda fədakarlıq göstərdilər. Əlbəttə, əsasən dinə görə getdilər; hərçənd bəzilərinin də vətəni və ölkə sərhədlərini müdafiə üçün fədakarlıq etməsi mümkündür. Analar, atalar, həyat yoldaşları, övladlar və arxa cəbhədə çalışan şəxslər də başqa formada qəhrəmanlıq yaratdılar. Siz müqəddəs müdafiənin səkkizillik xatirələrini vərəqləyin. Görün bir cəmiyyətin vəziyyətinə və keyfiyyətinə sənətkar bir baxış üçün bundan gözəl bir şey tapa bilərsiniz? Siz dünyanın ən dəyərli dram əsərlərində bir insanın fədakarlığı ilə üzləşdikdə onu mədh və təqdir edirsiniz. Sizin üçün məsələn, Janna d`Ark kimi hansısa inqilabçının, yaxud hansısa ölkənin fədakar əsgərinin filmi, musiqisi, rəsm əsəri və həyatı təsvir olunduqda öz qəlbinizdə, daxilinizdə və vicdanınızda o qəhrəmanı mədh etməyə bilmirsiniz. Bu sənət əsərində göstəriləndən dəfələrlə dəyərli və böyük olan minlərlə hadisə müqəddəs müdafiənin səkkizillik dövründə və inqilabın özündə sizin evinizdə baş verdi. Bu gözəllik deyil?! İncəsənət bunun kənarından laqeyd ötə bilərmi?! İnqilabın gözləntisi budur və bu artıq gözlənti deyil. Deyirlər nə üçün gözəllik görünmür. Bu məsələyə etinasız yanaşan şəxs bu gözəlliyi görmək istəmir.[26]

## İncəsənət və inqilab

Böyük hadisələri izah edib zehinləri aydınlaşdıra bilən amil sənət dilidir. İnqilabın qələbəsindən öncə, on beş illik müharibə dövründə təəssüf ki, çox nadir istisnalardan başqa incəsənət bu meydana qoşulmadı. Bəzən yaxşı şeirlər deyilir və zehinləri aydınlatmağa təsir göstərirdi. Son dövrlərdə - bəlkə də 1970-ci illərdə bəzi pyeslər və təsviri sənətlər də təxminən meydana qoşuldular, lakin çox az və nadir idilər. Məsələn, Tehranda Əbuzər pyesini tamaşaya qoydular, Məşhəddə indi də incəsənət sahələrində fəal olan yaxşı gənclər Yağış pyesini tamaşaya qoydular, amma bunlar çox az idi. Qısası budur ki, o zaman incəsənətin rolu çox deyildi.

Lakin inqilabın qələbə çaldığı andan incəsənət əsasən yeni sənət istedadlarının - gənclərin vasitəsi ilə meydana qoşuldu. Siz indi görürsünüz ki, bizim bu məşhur sənətkarlarımız arasında çoxları inqilabdan sonrakı gənclərdir. Bunlar ya müharibə cəbhələrində, ya inqilab səhnələrində imandan bəhrələnməklə özünəinam əldə etmiş və bir sahəyə yönəlmiş, misal üçün, əlinə fotoaparat götürüb, şəkil çəkmək üçün cəbhələrə gedən şəxslərdirlər. Bu işlər bunları incəsənətə sarı çəkdi. Həmçinin incəsənətin digər növlərində əksəri inqilabın əvvəlindən başlayan gənclər idilər. Bəziləri də inqilabdan qabaqdan qalan və inqilabla razılaşan sənət adamları idilər. Təəssüf ki, çoxları da razılaşmadılar, gedib bir kənarda oturdular və sənətlərini inqilab üçün işlətmədilər.[27]

## Həqiqət və prinsiplər

Mən incəsənət üzərində çox təkid göstərirəm. Biz incəsənət sarıdan geridəyik. Dünya sənət növlərindən inqilab əleyhinə çox güclü şəkildə istifadə edir, lakin burada bir sənətkara "cənab, siz inqilaba xidmət və inqilabı müdafiə üçün bu filmi hazırlayın" - deyildikdə tez cavab verirlər ki, biz incəsənəti siyasi məqsədlər üçün işlədə bilmərik, sənət sənət üçündür. Bunun mənası odur ki, düşmən bizə deyir: "Biz bu yolla sizi vururuq, amma siz bu yolla özünüzü müdafiə etməyin". Mənası budur. Bu, məqbul deyil. Müsəlman sənətkar sənəti ilə həqiqət və prinsipləri bəyan etməyə razı olan səntəkardır. Bunu inkişaf etdirmək lazımdır.[28]

## İctimai rəy

Təxminən əlli ildir bunlar almanların əleyhinə və yəhudilərin məzlumluğu barədə bir şey hazırlayırlar; yəni həqiqətən iş görməkdədirlər. İndi dünyanın ictimai rəyi sizi - uzun illər ölkəsi tar-mar edilən məzlum iranlı müsəlmanı cinayətkarları qəbul etdiyi qədər qəbul etmir. Əgər indi bir kəlmə söz danışmaq istəsəniz, qəbul etməzlər; o fələstinlini qəbul etməzlər.

İctimai rəyi belə formalaşdırmışlar. Biz bu rəydə yoxuq. Günün məsələsi bunlardır. Odur ki, səmimi bir adam kimi işə qoşulmaq və səmimi şəkildə inqilabı müdafiə etmək lazımdır. Utanıb-çəkinəcəyimiz yoxdur. Biz böyük bir məqsədi olan bir xalqıq. Bütün bu zəhmət və fəaliyyətlə hegemon bir düşməndən utanmaq, çəkinmək olmaz, düşmənin üstünə getmək lazımdır.[29]

Dünyanın hər tərəfində bütün ziyalılar, yazıçılar, sənətkarlar və təbliğat işində az-çox çalışanlar bu məsələyə dair tam vəzifə hissi ilə borclarını yerinə yetirməlidirlər. İkinci Dünya Müharibəsindən sonra yəhudilər bütün dünyada özlərini məzlum göstərmək üçün yüzlərlə və hətta minlərlə film hazırladılar. Bizim bildiyimiz qədərincə bu gün Fələstin xalqına olunan zülm heç zaman bir xalqa olunmamışdır. Halbuki təəssüf ki, dünyanın ictimai rəyi bu zülmdən xəbərsizdir. Bu düzgün bəyan olunmalıdır; filmlər hazırlanmalı, sənət işləri görülməlidir ki, dünyanın bütün ictimai rəyi nə baş verdiyini bilsin.[30]

## Parlaq günəş

Əgər İslam inqilabı və cəmiyyəti dəyərli sənətə malik olmasa, öz qəlbindəkiləri tərəf-müqabillərinə çatdıra və onlarla rabitə qura bilməyəcək... İncəsənəti qənimət bilib İslam üçün işlədin. İncəsənəti İslam meyarları ilə öyrənin, öyrədin və işlədin ki, ilahi və islami məfhum və dəyərləri xalqa göstərə biləsiniz. Bu gün dünya İslam həqiqətlərinə ehtiyaclıdır. Quran məfhumlarının və Quran təlimlərinin bu parlaq günəşi bu gün dünya xalqlarına daha lazımdır.[31]

## Günəşlə düşmənlik

İslam incəsənətini anlamaq, yaxud onun üstünlüyünü etiraf etmək istəməyən şəxslərdən çox təsirlənməməlisiniz. Əgər kimlərsə bizim sənətimizi və sənətkar olan bizi qəbul etmək istəmirlərsə, sizin dilinizdən deyirəm ki, bu əsla mühüm bir şey deyil; pis bir şey də deyil. Məgər hamı xüsusi bir düşüncə və təfəkkürdən irəli gələn bir incəsənətlə müvafiq ola bilər?! Mütləq bəziləri müxalif olmalıdır. Eybi yoxdur, müxalif olsunlar. Yəqin ki, bəziləri məzmun və məqsədə qarşı çıxacaqlar. Bu məsələ insana çox böyük görünməməlidir. Heç kəsin müxalif ola bilməyəcəyi bir şey var və o incəsənətin və sizin sənət qabiliyyətinizin özüdür. Əgər siz bir yazı, şeir, musiqi, rəsm, yaxud incəsənət məharəti ilə dolu olan yaxşı bir sənət əsəri təqdim etsəniz, heç kəs bunun pis olduğunu deyə bilməz, heç kəs ona qarşı çıxa bilməz. Çünki bu, günəşlə düşmənçilik etməyə bənzəyər.[32]

## Məsnəvidə bəyan olunan məfhumlar

Bəşər həyatında dəyərli məfhumlar və bəzi həqiqətlər vardır. Bu məfhum və həqiqətlər xalqa bəyan olunmalıdır; çünki onlara ehtiyaclıdırlar. O həqiqətlərdən biri Allah-Taalanın tövhid həqiqətidir. O, aləmin ən gözəl və ən dəyərli həqiqətlərindən hesab olunur. Yaradanın varlığı həqiqəti doğrudan da ən üstün həqiqətlərdəndir. Bəşəriyyətin uca mənəvi və ruhi məqamlara yüksəlməsi üçün ədalətə və daxili insan zövqünə ehtiyacı dəyər məfhumlarındandır. Əlbəttə, maddədə, maddə aləmində, palçıqda və maddə arasında qalan şəxs nə maddə aləminin nə olduğunu bilir, nə də yüksəlişdən baş çıxarır. Lakin mənəvi və ilahi məfhumlarla tanış olan şəxs uca ruhi və mənəvi məqamlara yüksəlişin ən gözəl bəşəri məfhum və həqiqətlərdən olduğunu anlayır. Bunlar xəbəri olmayan insanlar üçün izah olunmalıdır. Necə izah etməliyik? "Ey insanlar! Bilin ki, maddi aləmdən üstün bir aləm var və yüksəliş vardır" - deməklə o mənanı və həqiqəti əks etdirmək olar? Xeyr. Amma incəsənətlə o mənanı və həqiqəti əks etdirmək olar, şeirlə əks etdirmək olar, musiqi, rəssamlıq və müxtəlif sənət növləri ilə əks etdirmək olar. Bəzi həqiqətləri sənət dili olmadan bəyan etmək mümkün deyil. Təbii ki, əvvəl bu məfhumları öyrənməlisiniz. Kompliment söyləmirik. Siz əvvəlcə gərək bu məfhumları özünüzdə vücuda gətirəsiniz. Necə? İslam məfhumları ilə ünsiyyətlə. Bu məfhumları sizə ötürə bilən kitabları oxuyun. Hər kəs bir yolla bu işi görə bilər. Amma mənim fikrimcə, belə bir iş görmək istəyən sənətkar təbəqəsi üçün ən yaxşı kitab Molla Ruminin Məsnəvisidir. Bu kitabı oxuduğunuzda görürsünüz ki, orada sənət dilindən başqa heç bir dillə bəyan olunması mümkün olmayan həqiqətlər mövcuddur. Hətta Mövləvinin özü də şeir deməsəydi, nəsr dili ilə onları bəyan edə bilməzdi. Mövləvi elə bir şəxsdir ki, məclislər də keçirirmiş, amma bu məfhumları kitabla və adi dillə bəyan edə bilmirmiş. Çünki onları şeir dili ilə demək olar. Odur ki, o dildən istifadə etmişdir. Vücudunuzu Məsnəvidə bəyan olunmuş məfhumlarla doldurun ki, sənət formasında sizdən ətrafa yayılsın. Biz sizdən bunu gözləyirik.[33]

## Sənət adamı olan imam

Xoşbəxtlikdən İslam Respublikasında hökumət və hakimiyyət mənəvi məfhumların hökuməti və hakimiyyətidir. Bu quruluşun banisi və bu quruluşun başında duran da həmin mənəviyyat, irfan və sənət aləmlərinə bağlı olan bir insan idi. Əziz Peyğəmbər (s) və Əmirəlmöminin (ə) də belə idilər. Əgər bir şəxs Əmirəlmömininin (ə) mənəvi, irfani və sənət məfhumları və ibarətləri ilə dolu olan münacatlarını oxusa və anlasa, o həzrətin əlinə necə qamçı götürüb hüquqi cəza tətbiq etdiyinə təəccüb edər. Bu adam necə muharibə edirdi? Bu adam necə əlinə xəncər götürürdü? O həzrətin həqiqəti və əsl məqamı bu münacatlardır. Lakin ictimai vəzifələrini yerinə yetirmək üçün o işləri də qəbul edirdi. Böyük İmam da belə idi. İmam irfan, mənəviyyat, mənəvi və ruhi yüksəliş adamı idi. Lakin ilahi vəzifə onun qarşısına ağır məsuliyyət qoyurdu və o həmin məsuliyyəti götürməyə, yaxud ona dözməyə məcbur idi. Siz görürsünüz ki, imamın azsaylı şeirləri də arifanə şeirlərdir. Həmin şeirlərdə də meydən, məşuqdan, xəttü-xaldan, xəstə göz-qaşdan və bu kimi şeylərdən danışılmışdır. Bunlar incəsənət məfhumlarıdır.[34]

## Üslub fərqi

İnqilab sənətini inqilabi məfhumları imanlarından və onları qəbul edən qrupda məhdudlaşdırın. Buna deyək inqilabi sənət, əks-inqilabçı və laqeyd sənətə şamil olan digərlərinə isə qeyri-inqilabi sənət deyək. Siz çalışın ki, inqilaba etiqadlı olan bu incəsənət çevrəsində ziddiyyət yaranmasın. Mən bunu istəyirəm. Bu sahədə aranızda olan üslub fərqləri əsas olmasın və yer açmasın; nə zehində, nə də əməldə. İki nəfərin bir-biri ilə əməkdaşlıq etməməsi mümkündür, eybi də yoxdur. Siz deyirsiniz ki, mən filankəslə əməkdaşlıq edə bilmirəm. Çox yaxşı, eybi yoxdur. Sənətkarın ruhunu məcbur etmək olmaz ki, filan yerdə mütləq əməkdaşlıq etsin. Lakin bu üslub fərqlərinin ziddiyyətə və çəkişməyə çatmasına qoymayın. Bunu həqiqətən bir qayda və prinsip kimi diqqətdə saxlayın.[35]

## Həm formada, həm məzmunda

Bəziləri deyirlər ki, öhdəçi sənətdə birinci söz ikinci sözlə ziddiyyət təşkil edir. İncəsənət insanın azad təxəyyülünə əsaslanır, öhdəçi isə zəncirlənmiş deməkdir; bunlar bir-birinə necə uyğun gələ bilər. Bu bir təsəvvürdür və sözsüz ki, düzgün təsəvvür deyil. Sənətkarın məsuliyyəti və öhdəliyi məsələsi onun sənətkar olmasından öncə insan olmasına qayıdır. Hər halda bir sənətkar sənətkar olmazdan öncə bir insandır və insan məsuliyyətli olmaya bilməz. İnsanın birinci məsuliyyəti insanlar qarşısında məsuliyyətidir. Baxmayaraq ki, insanın təbiət, yer və göy qarşısında da öhdəliyi var. Amma onun böyük məsuliyyəti insanlar qarşısındakı məsuliyyətdir. Eyni zamanda sənətkar çox üstün xüsusiyyətinə görə qeyd etdiyimdən əlavə bir öhdəliyə də malikdir.

Sənətkar həm öz sənətinin forması, həm də məzmunu qarşısında öhdəliyə malikdir. Sənət zövqü olan şəxs aşağı səviyyə ilə kifayətlənməməlidir. Bu bir öhdəlikdir. Tənbəl və passiv sənətkar, öz sənət işinin ucalığı və yaradıcılıq etmək üçün çalışmayan sənətkar əslində özünün forma qarşısındakı sənət məsuliyyətinə əməl etməmişdir. Sənətkar sənət formasının ucalığı üçün bacardığı qədər daim səy göstərməlidir.

Bundan əlavə məzmun qarşısında da öhdəlik var. Biz nə təqdim etmək istəyirik? Əgər insan möhtərəm və əzizdirsə, onun qəlbi, zehni və düşüncəsi də əziz və möhtərəmdir. Yalnız oturub bizim sözlərimizə qulaq asdığına görə dinləyiciyə hər şeyi vermək olmaz. Gərək ona nə verdiyimizə baxaq. Əlbəttə, hansı siyasi cinaha daxil olub-olmamaq məsələsi - bəzi dostların dediyi bu sözlər elə məsələlərdir ki, siz bunları arxada qoymuş olmalısınız. Bunlar söhbətin mövzusu deyil. Söhbətin mövzusu əxlaq və fəzilətdir. Mən zənnimcə, Romen Rollandan oxumuşam ki, deyir sənət əsərində 1 faiz sənət, 99 faiz isə əxlaq olmalıdır; yaxud ehtiyat etsək, belə deyək ki, 10 faiz sənət 90 faiz əxlaq. Məncə bu söz dəqiq söz deyil. Əgər məndən soruşsalar, deyərəm ki, 100 faiz sənət və 100 faiz əxlaq olmalıdır. Bunların bir-biri ilə ziddiyyəti yoxdur. İşi 100 faiz

sənət yaradıcılığı ilə təqdim etmək və onu yüz faiz uca, yüksəldən, inkişaf etdirən və fəzilət yaradan məzmunla doldurmaq lazımdır. İncəsənət sahəsində bəzi qayğıkeş insanların nigaran olduğu məsələ budur ki, biz təxəyyül azadlığı, yaxud sənət azadlığı bəhanəsi ilə fəziləti əldən verib əxlaqı tapdaya bilmərik. Bu çox mühümdür. Buna əsasən, öhdəçi sənət düzgün bir sözdür.[36]

## İslam sənəti

Bizim dediyimiz İslam sənəti nə deməkdir? Budur ki, İslam məzmunu, məqsədləri və amalları ilə bir sənət yaransın, insanları azdıran, gəncləri azdıran, bəşəri qeyri-həqiqi və yalançı işlərlə məşğul edən, insanı özünün çatmalı olduğu amal və ideallarından çəkindirən, əməli səhnədə dünya zalımlarına kömək edən, dünya məzlumlarını heç zaman müdafiə etməyən, hegemonizmin zər və zorunun xidmətində duran bir sənətin qarşısında dayansın və o sənətin xalqın zehninə hakim olmasına imkan verməsin. Bizim də bundan başqa bir məqsədimiz yoxdur.[37]

## Siyasi oyunlar

Mənim sənət adamlarına və incəsənətlə məşğul olan şəxslərə tövsiyəm budur ki, bunları cinah və siyasi oyunlara çəkməyin. Bu indinin söhbəti deyil. Mən prezident olan zamandan İrşad nazirləri və müxtəlif məmurlarla üzləşəndə bu məsələni deyirdim. Müxtəlif şəxslərə xüsusi tövsiyələr də edirdim və bunların hamısı bu istiqamətdə idi ki, siyasi xətlərin, siyasi cinah və partiyaların gəlib bu sahəyə daxil olmalarına və onu ələ keçirmələrinə qoymayın. Çünki bu zaman hər şey zay olacaq. Amma səhv etməyin; dəyərləri qorumaq və onları davam etdirmək zamanı gəldikdə, yaxud söhbət dəyərlərin dəyişdirilməsindən getdikdə bir xətt mövcuddur. Siz deyə bilməzsiniz ki, mən nə bu tərəfdənəm, nə o tərəfdən. Məgər belə bir şey mümkündür?! Bu olur kimliksiz. Məgər mümkündürmü adam bir dəyərə həm etiqadlı olsun, həm də olmasın, bir dəyəri həm qorusun, həm də qorumasın?! Burada insan gərək mövqe seçsin və ona sadiq qalsın.[38]

## Bu, ağıldan deyil!

Bugünkü dünyada siyasət incəsənətdən qeyri-sağlam yolda istifadə edir. Əgər etmir desək, məlumatsızlığa dəlil olar. Həm də nəinki bu gün istifadə edir, hətta keçmişdən istifadə etmişdir. Amerika Xarici İşlər Nazirliyinin 19 Avqust çevrilişi barədə nəşr olunmuş sənədlərdən birini tərcümə edib mənə gətirdilər. Orada Ruzvelt deyir ki, biz Tehrana gələndə tərcümə olunub qəzetlərdə çap edilməsi üçün özümüzlə yazılıb hazırlanmış məqalələrlə və həmçinin karikaturlarla dolu olan böyük bir çamadan gətirdik. Siz təsəvvür edin; Amerikanın CIA təşkilatı onlarla razılaşmayan, onların mənafeyini təmin etməyən bir hökuməti devirmək üçün bütün vasitələrdən, o cümlədən incəsənətdən istifadə etmişdir. O hökumət Pəhləvi dövrünün bütün hökumətlərindən fərqli olaraq milli hökumət idi, qanuni yolla və xalqın səsi ilə iş başına gəlmişdi; onlar qorxurdular ki, birdən sovetlərin dəmir pərdəsi arxasına gedər. Əlbəttə, o zaman yəqin ki, həm bunların işinə yarayan, həm də etimad edə bildikləri bir karikaturçu olmamışdır; buna görə özləri ilə hazır karikaturalar gətirmişdilər. O sənəddə göstərilir ki, biz bunları hazırlamağı CIA təşkilatının İncəsənət bölməsinə sifariş etdik. Təsadüfən iki-üç il öncə də italiyalılar bir kitab yazdılar və fars dilinə tərcümə olundu. Orada da CIA təşkilatının İncəsənət bölməsi və onun müxtəlif fəaliyyətləri barədə yazılmışdı. Siyasət bu şəkildə incəsənətdən istifadə edir. Siz burada nə iş görmək istəyirsiniz? Əgər dünyanın bütün siyasətçiləri, hegemonları, quldurları və ixtiyar sahibləri gəlib özlərinin müqəddəs kitabları önündə incəsənətdən istifadə etməyəcəklərinə dair Allaha and içsəydilər, insan nisbətən rahatlayıb deyərdi ki, çox gözəl, Allaha şükür olsun, daha incəsənət xilas oldu. Amma onlar incəsənətdən istifadə etməkdədirlər. Siz nə iş görmək istəyirsiniz? Siz istəyirsiniz onların incəsənət vasitəsi ilə nail olduqları tamahkar məqsədlər qarşısında bu vasitədən istifadə etməyəsiniz? Bu ağıldandır?! Xeyr, bu ağıldan deyil.[39]

## Murdar və çirkin

Biz incəsənət üçün çox dəyər tanıyırıq, amma incəsənətin də hər bir iş kimi - xörək yemək, instintktiv, cinsi və qeyri-cinsi ehtiyacları təmin etmək və digər işlər kimi haramı və halalı var. Əgər kiməsə "haram yemə" - desələr, deyə bilməz ki, siz məni yeməyə, doymağa və ləzzətli nemətlərdən bəhrələnməyə qoymursunuz. Xeyr, bəhrələnin, amma halalından. Halal sənətlə məşğul olun; Allah-Taalanı bizdən narazı etməyən sənətlə. Bizi ləhvə - ləhv əsas məqsəddən yayınmaq, bizi əsas işdən uzaqlaşdıran ikinci dərəcəli bir şeyə vurğun olmaqdır - sarı çəkən musiqi, musiqidə işlənib gənci ehtirasa, veylliyə, düşmənlərin gəncin aludə olmasını istədikləri işlərə sövq edən bir söz haramdır. Ailələrin təməlini sarsıdan, ailə daxilində bu gəncin həyat yoldaşı olan qıza bir şey öyrədən, oğlana bir şey öyrədən və nəticədə bunların arasındakı bağlılığı İslamın istədiyi yaxınlıqdan xaric edib formal, sırf rəsmi və məzmunsuz bir şeyə çevirən o şeir və musiqi haramdır; istər musiqi olsun, istər başqa bir şey və yaxud necə deyərlər, üçbucaq eşqlər. Təəssüf ki, bizim bəzi kinoregissorlarımız və uyğun qurumlarımız tam təqvasızlıq və vicdansızlıqla bunları yayırlar. Haram yəni murdar olandır: "... və murdar onlara haram edir". Bu, murdar və çirkindir, adı incəsənət olsa da. Bu məqama diqqət yetirin, onun çox incə və çətin sərhədini tanıyın və onun əsasında hərəkət edin.[40]

## Yaxşı bir musiqi

İnqilabdan öncəki musiqinin dəyər baxımından üç əsas eybi vardı. Biz texniki cəhətlərini bilmirik, ancaq deyə bilərik ki, dəyər cəhətlərində üç əsas nöqsanı vardı. Biri bu idi ki, məzmun və forma seçimində bəzi musiqilərin bayağılığa güclü təmayülü vardı. Musiqi formalarının və şeir dilinin hər ikisi iranlı idi, amma bu təsniflər həm məzmun, həm də texniki baxımdan bayağı idi; belə ki, bir musiqiçi harmoniyanı belə pozduqlarını, bu alətlərdən pis və qeyri-münasib formalarda istifadə etdiklərini, onu-bunu yamsıladıqlarını gördükdə narahat olurdu. Musiqilər İran musiqiləri idi, alətlər də İran alətləri, lakin forma və məzmun pozğun idi. İkinci eyib budur ki, Qərb musiqisinə güclü təmayül vardı. Üçüncü eyib bu idi ki, sağlam və klassik İran musiqisi pis və fəsadçı məzmuna xidmət göstərirdi. Hamısından pisi birincisidir. Hamısından az zərərlisi ikinicisidir. Yəni Qərb musiqisinə təmayül pisdir, amma İran musiqisinin pis yollarda işlədilməsi qədər yox. Heç bir pozğunluğun, fəsadın, qızbazlığın, əskikliyin və başəri rəzalətin olmadığı çox yaxşı, irfani və yüksək səviyyəli bir Qərb musiqisi də ola bilər. Buna əsasən, əgər belə bir şey tapılsa, Qərb musiqisi olsa da, eybi yoxdur.[41]

## Ehtirası təhrik edən musiqi haramdır!

Problemlərdən biri bu musiqi məsələdir. Bizim bir xətt çəkib sərhəd göstərməyimiz çox çətindir. Amma mən demək istəyirəm ki, aydın nümunələr var. Halal, təmiz və pak saz-avazla məkruh, yaxud haram olan saz-avaz arasında dəqiq xətt çəkməmişik ki, məsələn, bunun bu qədəri yüksələndə, yaxud bu saz əlavə olunanda korlandığını deyək. Bu qədər dəqiqləşdirə bilmərik. Amma hər halda bu böyük qrupda iki nöqtə vardır; onun biri qəti halal, biri də qəti haramdır. Qəti haram olan vardır və ondan istifadə etməməliyik. Klassik, yaxud qeyri-klassik bir musiqi, özümüzün adi musiqi alətlərimizdən biri də sadə tonla çalınsa, amma oxunan şeir ehtirası təhrik edən bir şeir olsa, haramdır; oxuyan da kim olursa, olsun. Gözəl səslə musiqi aləti birgə ifa olunub gənci şəriətdə haram olan hansısa əmələ təhrik etsə, bu haram işdir. Sərt və təhrikedici xarici musiqilər də olmaz. Əlbəttə, eybi olmayan musiqilər də var. Amma mən indi onun nümunələrini konkret şəkildə deyə bilmərəm.[42]

## Halal və haram musiqilər

Musiqidə iki aydın nümunə vardır: biri qəti haram nümunəsi, biri qəti halal nümunəsi. Bunların arasında olanlar şübhəlidir. Qəti haram olan insanı özündən çıxaran, həqiqətlərdən ayıran, Allahdan ayıran və ehtiraslara sövq edən musiqidir. İslama görə bu haramdır. Deyilən "ləhv" musiqi budur. Bizdən də soruşanda cavab veririk ki, ləhv musiqi haramdır; yəni insanı Allahdan, Allah zikrindən və dünya həqiqətlərindən qafil edən və xəyallar aləminə aparan musiqi. Elə bir musiqi ki, gənc qıza və oğlana, yaxud hətta gənc olmayan insana çalındıqda, yaxud oxunduqda onu ləhv işlərə, qadağalara, fəsada və ehtiraslara sarı çəkir, İslamın istədiyi paklıqdan xaric edir. Bu haramdır. Bu klassik musiqi də ola bilər, Qərb musiqisi də ola bilər, yerli musiqi də ola bilər. Bu xüsusiyyətlərə malik olmayan musiqi də var. Fərz edin gözəl məzmunlu bir şeiri yaxşı bir xanəndə gözəl səslə oxuyur, musiqiçi də çalır. Şeirin məzmunu dinləyicini İslam həqiqətlərinə, ilahi və irfani həqiqətlərə, irfani və ilahi məsələlərdən xaric olsa da, həyat həqiqətlərinə yaxınlaşdırır. Bunun şübhəsiz, eybi yoxdur və haram deyil. İslam bizi həyata qaytarmaq istəyir. İslam qafil olmağı, təsəvvür və xəyallara qərq olmağı, həyat həqiqətlərinə qarşı gic və qafil olmağı qəbul etmir və bəyənmir. Məhz buna görə elə musiqilər spirtli içkilərlə yanaşı olur. Belə musiqi onun əksinədir. Ümumiyyətlə qarşı-qarşıya duran iki istiqamətdir, oyadıcıdır, xatırladandır.[43]

## Musiqi bir sənət kimi

İki cür musiqi var: haram musiqi və halal musiqi. Haram musiqi ləhv məclislərinə xas olandır; yəni ləhv məclisləri ilə münasib olan. Mütrib musiqi ləhv məclislərinə münasib olandır. Yəni elə musiqidir ki, o musiqi aləmindən bayıra çıxdığınızda o məclisi sizin qarşınızda təsvir etsələr, İslam düşüncəsinə, yaxud qeyri-islami olsa da, ciddi düşüncələrə malik bir insan kimi onu rədd edərsiniz. Belə məclisə uyğun olan musiqi haramdır.

Bəzən musiqi sözlü musiqi olur. Bəzən adi bir səslə haram bir şeiri oxuyurlar. Bu şeir bu musiqini haram edir, çünki şeir haramdır, istiqaməti haramdır. Bəzən bir şeir bir musiqini halal edir. Adi musiqidir, bu musiqi ilə pis bir şey də oxuna bilərdi, ancaq indi mənəvi, irfani və əxlaqi bir şeir onu halal edir. Əlbəttə, irfani şeir eşq şeiri ilə qarışdırılmamalıdır. Belə deyil ki, hər bir eşq şeiri irfani olsun. Bəzi adamlar elə bilirlər ki, meyin, məşuqun, zülfün, dodağın və bu kimi şeylərin olduğu şeir artıq irfani şeirdir. Xeyr, Hafizin şeirləri də iki növdür. Mən bir dəfə Hafiz barədə keçirilən bir məclisdə onun şeirlərini qisimlərə ayırdım. Onların bəzisi irfani, bəzisi isə eşq şeiridir. Bu gün mənim fikrimcə, insanlar irfani şeirdən çox əxlaq şeirlərinə möhtacdırlar; Saibin şeirləri və hind üslublu şeirlər kimi. Vaiz Qəzvininin şeirləri də belədir. Bu şeirlər həm şeir səviyyəsi baxımından yüksəkdir, həm də indi xalqın mənalarını düzgün anlamadığı irfani şeirlərdən çox bunlara ehtiyacı var. Bu şeir haram ola bilən bir musiqini halal edə bilər.

Musiqi sənət növü kimi dəyərli bir şeydir. Lakin sənət növü olan pis bir şeirin rədd olunduğu kimi, sənət növü olan günah dolu və günah öyrədən bir hekayənin rədd olunduğu kimi, sənət növü olub günah öyrədən bir musiqi də həm haramdır, həm də rədd olunur. Bunu sənətə qarşı çıxmaq kimi başa düşməsinlər, deməsinlər ki, filankəs incəsənətə müxalifdir. Biz günaha müxalifik, incəsənətə nə üçün müxalif olaq?! "Musiqi haramdır" söyləyən kimi deyirlər ki, bunlar yenə mollabazlıq və şeyxbazlıq çıxarırlar, müqəddəsbazlıq edirlər. Xeyr, cənab, yaxşı musiqi

yaxşı bir şeydir. Məgər görmədiniz ki, musiqi alətlərini imamın gözü qarşısına aparıb çalmağa və oxumağa başladılar, imam da dağ kimi oturdu və baxdı?![44]

## Ən yaxşısını seçin!

Musiqidə və oxumaqda ən yaxşısını seçməyə çalışın. Məqsəd yalnız bu deyil ki, bir mahnı oxuyasınız; bunların mesajı var, siz onu çatıdrmaq istəyirsiniz, bu yolla qazanc əldə etmək istəmirsiniz ki. Siz bir düşüncə daşıyırsınız; o düşüncəni təqdim etmək istədikdə ən yaxşı formada təqdim edin.

Mən dəfələrlə demişəm ki, əgər Uca Yaradan Quranda olan bu məzmunları fəsahətsiz sözlərlə desəydi, Quran indiyə qədər qalmaz və bu qədər nüfuz qazanmazdı. Düşüncə nə qədər ülvi olsa, əgər yaxşı formada və yaxşı dillə deyilməsə, qalmaz. Mahnıda forma nədir? Birinci növbədə musiqidir. Bunu bir nəfər oxumaq, bir nəfər çalmaq istəyir. Bunlar ən yaxşılarından seçilməlidir. Çox uzun olması da lazım deyil. Dünyanın yaxşı musiqilərinin heç biri bu qədər uzun deyil. Düzdür, biz dünyanın bütün yaxşı musiqilərini eşitməmişik, amma eşitdiklərimizin arasında yaxşıları çox zaman uzun olmur. Müharibə əlilindən ötrü bundan da artıq çalıb-oxumağa dəyər. Odur ki, ən yaxşı müğənniləri qəbul edin, yaxşılarını seçin. Mən ad çəkmək istəmirəm; yaxşı səsi olanları, yaxşı müğənnilik bacaranları, yaxşı musiqiçiləri, birinci dərəcəli bəstəkarları - əsas bəstəkardır - seçin.

Mərhum Ətaullah Zahid bir dəfə mənə dedi ki, məşhur "Məhəmməd Rəsulullah" filminin musiqisi Mədinənin, yaxud Məkkənin azanından götürülmüşdür. Bir azandır. O azanı təsadüfən bizim ölkəmiz daxilində də bir nəfər gözəl şəkildə demişdir. Bu mənim də xoşladığım "Şərif azan" üslubudur. O deyirdi ki, bunu onun bir "Allahu Əkbər"indən götürüb üzərində işləyiblər və bu musiqini yaradıblar. İnşallah bu iş üsulu və bu rəftar daha da gücləndirilsin. Bu ölkənin incəsənətini bu istiqamətə çəkməlisiniz. İnşallah ölkə incəsənətini inqilab dəyərlərinə sarı çəkin. Bu əzəmətli xalqın dediyi və dünyanı da dolduran bu tutarlı sözlər bəyan olunmalıdır; bizim öz xalqımız üçün də bəyan olunmalıdır. Biz yalnız

söhbətə üz tutmuşuq, halbuki ən yaxşı üslublar sizin ixitiyarınızdadır və bunları xalqa bəyan edə bilərsiniz.[45]

## Ən yaxşı xanəndə

Biz yaxşı xanəndəliyə və halal musiqi sənətinə yaxşı baxırıq. Əgər xanəndələr həmin halal musiqinin düzgün xəttini tapıb qoruya bilsələr, çox yaxşı olar; xüsusən də yaxşı şeir oxusalar, böyük hünər olar. Səsdən istifadə çox möhtəşəm bir işdir. Səsin gördüyü işi saz görə bilmir. Saz səsi müşayiət edir. Həyat və yaşayış səsinki və insan nəfəsinə məxsusdur. Əgər bu işi görə biləsələr və səsləri də bir həddə dayanmasa, şairlərə olduğu kimi mənim cənab xanəndələrə də tövsiyəm budur ki, daim uca pillələrə qalxsınlar və irəliləsinlər.[46]

## Halal və haramın sərhədi

Mən deyə bilmərəm ki, musiqi mədəni hücumla mübarizənin ən yaxşı yoludur. Yaxşısı budur belə deyək ki, mədəni hücumla mübarizənin yollarından biridir. Əlbəttə, bəzi şərtlərlə belə ola bilər, amma ən yaxşı yolunu mən bilmirəm. Bəziləri elə bilirlər ki, halal və haram musiqinin meyarı klassik İran musiqisi və qeyri-klassik olmasıdır. Xeyr, belə deyil. Din və şəriət dəvətçilərinin keçmişdə həmişə mübarizə apardıqları, haram olduğunu söylədikləri, şahların saraylarında əxlaqsız insanların, ehtiraslara təmayüllü və şəhvətlərdə qərq olmuş insanların yanında haram formada ifa olunan məhz klassik musiqimiz olmuşdur. Bu haram musiqidir. Odur ki, haram və halal musiqinin meyarı iranlı olmasından, klassik olmasından, qədim olmasından, ənənəvi olmasından, qərbli, yaxud şərqli olmasından ibarət deyil. Meyar mənim qeyd etdiyimdir.

İndi bəzi qurumlar bunları ayırırlar. Lakin mən bunların yüz fazi düz ayırmalarına əmin deyiləm. Bəzən gəlib bizə deyirlər ki, çox pis, yaxud pozğun bir kaseti icazəli şəkildə yayırlar. Bəzən bunun əksi də baş verə bilər.

Musiqi azdırıcı ola bilər, insanı ehtiraslara düçar edə bilər, insanı pozğunluğa, fəsada və aşağılığa çəkə bilər. Bunlar olmaya da, bunların əksi də ola bilər. Halal və haramın sərhədi buradır.[47]

## Yaxşı mahnılar

İnqilabdan sonra inqilabi dəyərlər istiqamətində yaxşı nəğmələr və çox yaxşı mahnılar hazırlandı, amma son illərdə belə mahnıların inkişafı azalmışdır. Bu da heyfdir. Yaxşı mahnılar hazırlanmalı, yaxşı şeirlər və yeni nəğmələr ifa olunmalı, onların hamısı da inqilabi dəyərlər çərçivəsində olmalıdır. Bunlar radio və televiziyada daim işıqlandırılmalıdır. Belə deyil ki, əgər yaxşı bir mahnı verilirsə, mütləq aşiqanə bir şeir olmalı və onu hansısa məşhur xanəndə ifa etməlidir. İnqilabi bir mahnı olduqda isə onun bir tərəfində mütləq eyib, irad və nöqsan olmalıdır. Xeyr, inqilabi mahnıları, İslama və İslam dəyərlərinə həsr olunmuş mahnıları ərsəyə gətirmək üçün ən yaxşı musiqiçilərdən və ən yaxşı muğənnilərdən istifadə olunmalıdır.[48]

## Musiqi ixracı

Mübarizə dövründə xarici dünyadan İrana bəzi musiqilər gəlir və mübarizlər səviyyəsində yayılırdı. Misal nədir? Bethovenin dördüncü simfoniyası, yaxud Əliyev şuru. Əliyev şuru bir zaman SSRİ-də - daha doğrusu keçmiş Rusiyada, çünki güman ki, sovetlərdən öncəyə aiddir; yəni təxminən 1914-cü ildə - bütün xalqı hərəkətə gətirən və döyüşə həvəsləndirən musiqidir. Baxın, ixrac olunan və sərhədləri keçib buraya gələn musiqilər bunlar olmuşdur. İndi də mənim fikrimcə, məşhur sənətkarlara aid olan bu Qərb musiqilərinin çoxusu - sözsüz ki, bəzi musiqilərdən və rəqs musiqilərindən başqa - məfhum baxımından bizim bu dili-dililərimizdən çox mənalı və güclüdür. Gərək görək biz bayıra nəyi ixrac edirik. Yaxşı qarşılamaları dəlil deyil; bəli, bəllidir ki, siz buradan nə ixrac etsəniz, hər halda bir qrup onu sevəcək. Bu, dəlil sayılmır. Bizim iddiamız nədir? Bizim iddiamız İslamdır, inqilabın İslam barədə təqdim etdiyi mütərəqqi məfhumlar və uca mədəniyyətdir. Çox gözəl, sizin musiqiniz bunları əks etdirir, yoxsa etdirmir? Əgər etdirirsə, yaxşıdır, ixrac edin; əgər etdirmirsə, yox.[49]

## Musiqinin hökmü

Musiqinin hökmünü aydınlaşdıraq. Məndən davamlı olaraq musiqi barədə soruşurlar. Bu məsələni araşdırın, müəyyənləşdirin. Halal və haram musiqi məsələsi bir mövzudur, bizim radio və televiziyamızdan nəyin gözlənilməsi, elm hövzəsinin baxışında mətləb, məzmun və ikinci dərəcəli məsələlər cəhətindən necə olması isə başqa bir mövzudur. Bu barədə həqiqətən haradasa işlənilməlidir. Müdərrislər Şurası bu məsələlər üzərində işləyən mərkəz ola bilər.[50]

## Məddahlıq sənəti

Məddahlıq işində bir neçə sənət növü vardır: şeiriniz sənətdir, səsiniz sənətdir, seçdiyiniz ahəng sənətdir, etdiyiniz hərəkət və işarələr sənətdir. İkinci amil isə ağıldır. Çünki bu şeirlərdə məntiq, əsaslandırma, bicimli, düzgün və yaxşı söz çoxdur və zehinləri qane edə bilərlər. Əlbəttə, məntiqin müxtəlif formaları var; bəzən qəti dəlildir, bəzən nitqdir, bəzən şeirdir. Məqsəd budur ki, bu sözü dinləyicinin zehninin dərinliklərinə çatdırıb onu qane edə bilsin. Üçüncü xüsusiyyət budur ki, siz din sözünün daşıyıcıları sayılırsınız; yəni üzərinizə mənəvi və ruhani vəzifə düşür. Dünyada yaxşı xanəndələr çoxdur, şeirlər də oxuya bilirlər, amma onlar məddah mövqeyindən danışmırlar. Amma siz Əhli-beyt (ə) məddahı mövqeyindən, mənəvi və ruhani mövqedən danışırsınız. Əlbəttə, başqa xüsusiyyətlər də var, amma bir-birinin yanında olan bu üç xüsusiyyət daha mühümdür. Çalışın Allahın lütfü ilə, Allah-Taalanın sizə bəxş etdiyi bu üç dəyərli xüsusiyyətdən ən yaxşı formada istifadə edin.[51]

## Xəttatlıq sənəti

Yaxşı xəttatlıq bir sənətdir. Bəziləri gedib zəhmət çəkir və məsələn, Nəstəliq xəttini öyrənirlər, lakin bu xəttat öz sənətini göstərmək istəyəndə bir kompozisiya yaradır. Bu kompozisiya onunkudur. Xətt keçmişdəkilərin irsidir, amma ona təsiri yoxdur. Bu xəttat yalnız xətti öyrənmişdir, bu kompozisiya isə onun yaratdığıdır. Kompozisiya nədir? Yəni məsələn, bir ayəni, yaxud şeiri xüsusi bir formada yazır. Bunun adı kompozisiyadır.

"Bismillahir-Rəhmanir-Rəhim", yaxud "Kim təqvalı olsa, Allah ona bir çıxış yolu əta edər", yaxud başqa bir cümləni onlarla formada yazmışlar. Bunu müxtəlif xəttatlar yazmışlar, amma hərəsi bir cür. Xəttin, onun meyar və qaydalarının bir olmasına və hamısının da həmin qaydaları öyrənməsinə baxmayaraq - ondan artıq bir şey öyrənmirlər - hər biri Bismillahı bir formada və bir kompozisiyada yazır. Bunun adı kompozisiyadır. Məsələn, bu yaxınlarda səhv etməsəm, Pakistanda bir sərgi təşkil etdilər, qədimdən məşhur xəttatların yazdığı bütün "Bismillahir-Rəhmanir-Rəhim"ləri topladılar və minlərlə kompozisiyadan ibarət bir sərgi oldu. Sənət budur.[52]

## Memarlıq - ən çox nəzərə çarpan həyat əlaməti

Biz təkid edirik ki, memarlığın məzmunu olsun. Çünki memarlıq ən çox nəzərə çarpan həyat əlamətidir. Siz ictimai həyata baxdıqda gözünüzə memarlıq əsərlərindən çox nəsə dəyirmi?! Haraya gedirsiniz qapı və divar, tavan, küçə və bazardır. Memarlığın dairəsi bu qədər genişdir. Buna əsasən, əgər memarlığın məzmunu olsa, həyatın bütün maddi mühiti məzmunlu və mənəviyyatlı olar; məzmunu olmasa, puç və əbəs bir şey olar. Təəssüf ki, bu günə qədər memarlıqların çoxu belə olmuşdur; düzəltmişlər, amma puç; dəmiri, sementi, kərpici və digər materialları bir-birinin üzərinə qoymuşlar, amma heç bir mənası olmayıb, insan zehninə heç bir məzmun ötürməyib. Bəzən də sırf təqlidçilik olur.[53]

## Bu sənəti dirçəldin!

Xalçaçılıq çox dəyərli işdir. Biz bu işi digər təsviri və dekorativ-tətbiqi sənətlərin müxtəlif növləri ilə müqayisə etdikdə görürük ki, həqiqətən çox möhtəşəm bir şeydir. Sap və düyünlə, müxtəlif sapları bir-birinin üzərinə qoymaqla elə naxış yaratmaq olur ki, hətta lələklə belə canlı yaratmağın mümkün olması bəlli deyil. Maksimum budur ki, mahir bir rəssam onu lələklə, rənglə və yağla belə çıxara bilər. Sap və düyünlə bir naxışın təsviri həqiqətən qeyri-adi bir işdir. İndi çox dəyərli olan bu işi görürlər.

Əvvəla bu bir köklü, çox dəyərli, gözəl və yerli sənətdir. Bu sənəti qorumalı, inkişaf etdirməli, bacardığınız qədər keyfiyyətini artırmalı, onda günbəgün daha çox yeniliklər yaratmalısınız; necə ki, sizin işləriniz əksərən belədir.

İkincisi isə sənət dəyərli bir şeydir və onun tərifə ehtiyacı yoxdur. Sənət gözəllik kimidir; kiminsə tərifləməsinə ehtiyac yoxdur. Eyni zamanda əgər biz həmin sənətin daha artıq dəyər əldə etməsini istəsək, onu düzgün məqsədlərin xidmətində işlətməliyik. Bu səhvdir ki, biz dediyimiz yaxşı bir şeiri, yaxud bəstələdiyimiz yaxşı musiqini, yaxud hansısa yaxşı əsəri yalnız sənətin özündən ötrü yaratdığımızı düşünək; yəni sənət, sənət üçün! Bu çox səhv və azğın bir məsələdir. İncəsənət bir məqsədin xidmətində durmalıdır. Buna görə siz baxdıqda görürsünüz ki, dünyanın böyük sənətkarlarından hər biri öz sənət əsərlərini müəyyən məqsədlərin xidmətində işlətmişlər. Bizim bugünkü məqsədlərimiz İslamın və inqilabın müqəddəsləri və ülvi dəyərləridir. Bu qədər gözəl olan bu incəsənəti o məqsədlərin xidmətində işlətmək lazımdır.

Bu sənəti dirçəltməyə çalışın. Əlbəttə, İranın qədim xalçaçılıq ənənəsini göstərən bu klassik naxışlar çox yaxşıdır, amma biz həmin sənəti tarixi bir xatirəni, bir İslam həqiqətini və bir dəyərli hərəkəti yaddaşlarda saxlamaq üçün işlətsək, daha böyük iş görmüş olarıq.

Xalça ən dəyərli sənət əsərlərindən və ən yaxşı yaradıcılıq işlərindəndir. Şübhəsiz, biz xalçaya indiyə qədər bu gözlə baxmamışıq.

Xalça bizim döşənəcəyimizdir və bu ona qədirbilməzliklə yanaşmağımıza səbəb olmuşdur. Sizin bu dəyərli sənət parçalarında yaratdıqlarınız həm incəsənətdir, həm tarix. Bunların ikisinin sintezidir və çox dəyərlidir.

Mən bu gözəl və heyrətləndirici işlər barədə öz hisslərimi düzgün bəyan etməyə qadir deyiləm. Bu qədərlə tövsiyə edirəm ki, bu işin əhatəsini bacardığınız qədər genişləndirin, onu bizim xalqımızın tarixi, ənənəsi və etiqadları baxımından dəyərli olanlarla birləşdirin və öz əbədi işlərinizi çox mənalı, məzmunlu və mesajlı edin.[54]

## Əl işlərinə çox ciddi yanaşın!

Əl işlərinə çox ciddi yanaşın. Bu işlər üzərində sərmayə qoyulsun. Ümumiyyətlə mənim fikrimcə, əl işləri üçün siyasət təyin olunmalıdır ki, biz bazar tapa bilək. Yol açılan kimi - əlbəttə, indi də bizim əl işlərimiz xaricə ixrac olunur, lakin ilk baxışdan layiqli həddə görünmür, bunlardan çox olmalıdır – fəaliyyət də artacaq, təşəbbüslər də daha artıq işə düşəcək; çünki həvəsləndirmə olacaq, pul gələcək, imkanlar təmin olunacaq. Bu, fikrimcə, çox mühümdür və bu barədə ciddi düşünsünlər.[55]

## İslam üçün ən böyük təbliğ

İslam üçün ən böyük təbliğ bəlkə də İslam Peyğəmbərinin (s) simasını dünyanın tamaşaçı və araşdırıcıları üçün işıqlandırmamızdır. Çox yaxşı olar ki, düşmənlər və müxaliflər özlərinin mürəkkəb mədəni və incəsənət üsulları ilə dünyanın xəbərsiz insanlarının zehinlərində o həzrətin simasını pis göstərməzdən öncə sənətkar, məlumatlı və dünyadakı müxtəlif üsulları bilən müsəlmanlar o böyük və hörmətli şəxsiyyətə dair sözlə, təbliğatla və izahla elm, mədəniyyət, incəsənət və təbliğat işləri görsünlər; bunlar lazımi işlərdir.[56]

## İstinadlar

[1] İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin üzvləri ilə görüşdə çıxışından: 1993.
[2] İsfahanın sənət adamları ilə görüşdə çıxışından: 1994.
[3] Urmiya şəhərinin mədəni-incəsənət mərkəzində yazıçı və şairlərlə görüşdə çıxışından: 1996.
[4] İslam Təbliğatı Komitəsənin İncəsənət şöbəsinin sənət adamları ilə görüşdə çıxışından: 1989.
[5] Komitənin İncəsənət şöbəsinin sərgisində isfahanlı sənət adamları ilə görüşdə çıxışından: 1994.
[6] Uşaq və yeniyetmələrin fikir inkişafı mərkəzinin sənət adamları ilə görüşdə çıxışından: 1998.
[7] Mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışından: 2003.
[8] "Hatif" mədəni-incəsənət qrupuna müraciətlə çıxışdan: 2000.
[9] Gənclərlə görüşdə çıxışından: 1999.
[10] Mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışından: 2001.
[11] Yenə orada.
[12] Yenə orada.
[13] Yenə orada.
[14] Yenə orada.
[15] Mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışından: 2003.
[16] Gənclər günü münasibəti ilə gənclərlə görüşdə çıxışından: 1998.
[17] İslam Təbliğatı Komitəsənin İncəsənət şöbəsinin sənət adamları ilə görüşdə çıxışından: 1989.
[18] Hövzə şeiri konfransının üzvləri ilə görüşdə çıxışından: 1991.
[19] İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin üzvləri ilə görüşdə çıxışından: 1993.
[20] Müqəddəs müdafiənin mədəni-incəsənət qüvvələri ilə görüşdə çıxışından: 2000.
[21] Urmiya şəhərinin mədəni-incəsənət mərkəzində yazıçı və şairlərlə görüşdə çıxışından: 1996.
[22] Səbə/28.
[23] Ölkənin mədəni məmurları və sənət adamları ilə görüşdə çıxışından: 1994.
[24] Mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışından: 2001.
[25] Yenə orada.
[26] Yenə orada.
[27] Gənclərlə görüşdə çıxışından: 1999.
[28] Mədəniyyət və İslam-İrşad Naziri ilə görüşdə çıxışından: 1992.
[29] Bəduk filminin tənqidinə dair çıxışdan: 1993.
[30] Fələstinə dair ilk konfransın iştirakçıları ilə görüşdə çıxışından: 1990.
[31] İncəsənət Universitetinin tələbələri ilə görüşdə çıxışından: 1991.
[32] İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin sənət adamları ilə görüşdə çıxışından: 1989.
[33] Komitənin İncəsənət şöbəsinin sərgisində isfahanlı sənət adamları ilə görüşdə çıxışından: 1994.
[34] Yenə orada.

[35] Sənət adamları ilə görüşdə çıxışından: 1991.
[36] Mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışından: 2001.
[37] İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin üzvləri ilə görüşdə çıxışından: 1993.
[38] Mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışından: 2001.
[39] Yenə orada.
[40] Sistan və Bəlucistan vilayətinin elmi nümunələri ilə görüşdə çıxışından: 2003.
[41] Radio və televiziyanın Siyasəti təyinetmə şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.
[42] İran İslam Repsublikasının radio və televiziya işçiləri ilə görüşdə çıxışından: 1990.
[43] İran İslam Repsublikasının radio və televiziyasının Mədəniyyət, ədəbiyyat və incəsənət şöbəsinin üzvləri ilə görüşdə çıxışından: 1992.
[44] İran İslam Repsublikasının radio və televiziyasının Müharibə şöbəsi ilə görüş tədbirindəki çıxışdan: 1992.
[45] "Mələklərin qanadı üzərində" filminin hazırlayanlarla görüşdə çıxışından: 1993.
[46] Böyük Rəhbərin şairlərlə görüşündəki çıxışından: 1995.
[47] Müdərrislər Şurasının üzvləri ilə görüşdə çıxışından: 1995.
[48] Radio və televiziyanın Siyasəti təyinetmə şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.
[49] Şəhid Müfəttihin ailəsi və Suruş nəşriyyatının məsul şəxsləri ilə görüşdə çıxışından: 1999.
[50] Qum Elm Hövzəsinin Müdərrislər Şurasının üzvləri ilə görüşdə çıxışından: 2005.
[51] Həzrət Zəhranın (ə) doğum günü münasibəti ilə məddahlarla görüşdə çıxışından: 1998.
[52] Xorasanlı və digər Quran qiraətçiləri ilə görüşdə çıxışından: 1997.
[53] Məşhəd şəhərinin hövzə tələbələrinin Ziyarətçi evi moketləri layihəsində görüşdə çıxışından: 1996.
[54] İmam Xomeyni hüseyniyyəsində xalça sərgisinə baxış keçirdikdən sonrakı çıxışdan: 1991.
[55] Bəduk filminin tənqidinə dair çıxışdan: 1993.
[56] İslam Birliyi Konfransının qonaqları ilə görüşdə çıxışından: 1989.